UOT 331.5:314;331.101.23
https://doi.org/10.30546/3006-0346.2025.3.87.626

# QLOBAL HÜQUQİ MÜQAVİLƏLƏR KONTEKSTİNDƏ GENDER BƏRABƏRLİYİNİN İNZİBATİ VƏ HÜQUQİ TƏMİNATI

**ƏŞRƏF ZEYNALOV**
*Azərbaycan Texniki Universiteti, magistr*
*E-mail: zeynalovsrf222@gmail.com*

**RAHİDƏ PAŞAYEVA**
*Azərbaycan Texniki Universiteti, magistr*
*E-mail: rahida.pashayeva2001@mail.ru*

**ÜMÜD SƏFƏRLİ**
*Azərbaycan Texniki Universiteti, magistr*
*E-mail: seferliumid2000@gmail.com*

**YUSİF ZEYNALOV**
*Azərbaycan Texniki Universiteti, magistr*
*E-mail: yusifzeynalli51@gmail.com*

## Giriş

Gender bərabərliyi müasir dünyanın əsas insan hüquqları prinsiplərindən biri kimi qəbul edilir. Bu prinsip həm milli qanunvericiliklərdə, həm də beynəlxalq hüquqi sənədlərdə geniş şəkildə əks olunmuşdur. Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa Şurası, Avropa İttifaqı və digər beynəlxalq qurumlar gender bərabərliyinin təmin olunması məqsədilə bir sıra hüquqi mexanizmlər və konvensiyalar qəbul etmişdir. Bu məqalədə gender bərabərliyinin beynəlxalq müqavilələrə əsaslanan təminat mexanizmləri təhlil olunacaq və bu mexanizmlərin milli hüquq sistemlərinə təsiri araşdırılacaq.

## Əsas hissə

Gender bərabərliyinin beynəlxalq səviyyədə təmin edilməsi məqsədilə bir sıra mühüm beynəlxalq müqavilələr və sənədlər qəbul edilmişdir. Bu müqavilələr dövlətlərə hüquqi öhdəliklər qoyur və gender bərabərliyinin milli siyasətlərdə və qanunvericilikdə təmin olunmasını tələb edir.

Əsas beynəlxalq sənədlər və onların tətbiq mexanizmləri:

- ❖ BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyası;
- ❖ Pekin Bəyannaməsi və Fəaliyyət Platforması (1995);
- ❖ Dayanıqlı İnkişaf Məqsədləri (SDG, 2015);
- ❖ Avropa İnsan Hüquqları Konvensiyası və Avropa Şurasının Gender Bərabərliyi Strategiyası (2018–2023);
- ❖ İstanbul Konvensiyası (Qadınlara qarşı zorakılıq və məişət zorakılığına qarşı mübarizə haqqında, 2011).

BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyası (CEDAW, 1979) qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının beynəlxalq səviyyədə qadağan edilməsini və qadınların kişilərlə bərabər hüquqlara malik olmasını təmin etməyi hədəfləyən ilk əsas sənəddir. Konvensiya qadınların siyasi, iqtisadi, sosial, mədəni və ailə həyatında tam bərabərlik hüquqlarını müdafiə edir. Tətbiq mexanizmi olaraq, bu sənədə qoşulan dövlətlər mütəmadi olaraq CEDAW Komitəsinə hesabatlar təqdim etməli və bu hesabatlar əsasında Komitə tərəfindən tövsiyələr almalıdırlar (BMT. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya (CEDAW, 2017).

Pekin Bəyannaməsi və Fəaliyyət Platforması (1995) qadın hüquqları sahəsində qlobal miqyasda əsaslı dəyişikliklərə səbəb olan strateji sənəddir. Bu bəyannamə qadınların siyasi, iqtisadi, sosial və mədəni sahələrdə iştirakı üçün bərabər imkanların yaradılmasını və gender bərabərliyinin təşviq edilməsini hədəfləyir. Dövlətlər Pekin Platformasına uyğun olaraq milli fəaliyyət planları hazırlamalı və bu planların icrasını təmin etməlidirlər. BMT və digər beynəlxalq təşkilatlar vasitəsilə bu planların yerinə yetirilməsi monitorinq olunur (BMT, 2022).

Dayanıqlı İnkişaf Məqsədləri (SDG, 2015) dünyada sosial, iqtisadi və ekoloji sahələrdə inkişafı təşviq etmək məqsədilə müəyyən edilmiş 17 əsas məqsəddən ibarətdir. Bu məqsədlər arasında 5-ci məqsəd xüsusi olaraq gender bərabərliyinin təmin edilməsinə yönəlib. Bu məqsəd qadınların hüquqlarının qorunması, gender əsaslı zorakılığın qarşısının alınması və qadınların cəmiyyətdə qərarvermə proseslərində tam iştirakının təşviq olunmasını nəzərdə tutur. Tətbiq mexanizmi olaraq, dövlətlər hər il milli hesabatlar hazırlayır və Dayanıqlı İnkişaf üzrə Yüksək Səviyyəli Forumda irəliləyişlərini təqdim edirlər (Birləşmiş Millətlər Təşkilatı, 2015).

Avropa İnsan Hüquqları Konvensiyası və Avropa Şurasının Gender Bərabərliyi Strategiyası (2018–2023) Avropa məkanında qadın və kişilərin hüquq və azadlıqlarını bərabər şəkildə qorumağı və gender əsaslı ayrı-seçkiliyin qarşısını almağı hədəfləyir.

Konvensiya çərçivəsində dövlətlər gender bərabərliyinə yönəlmiş tədbirlər həyata keçirir və pozuntu hallarında Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət imkanları təmin olunur. Gender Bərabərliyi Strategiyası isə konkret sahələr üzrə – məsələn, siyasi təmsilçilik, məişət zorakılığına qarşı mübarizə və əmək bazarında bərabərlik kimi sahələrdə fəaliyyət planlarını və prioritetləri müəyyən edir (Avropa Şurası, 2018).

İstanbul Konvensiyası (Qadınlara qarşı zorakılıq və məişət zorakılığına qarşı mübarizə haqqında, 2011) qadınlara qarşı zorakılıq və məişət zorakılığı hallarını aradan qaldırmaq məqsədilə qəbul edilmiş ilk məcburi beynəlxalq hüquqi sənəddir. Konvensiya qadınlara qarşı hər növ zorakılığın qarşısının alınması, zorakılıq qurbanlarının müdafiəsi və təqsirkarların effektiv şəkildə cəzalandırılması istiqamətində dövlətlərin öhdəliklərini müəyyən edir. Yerinə yetirilmə prosesi GREVIO adlı müstəqil ekspertlər qrupu tərəfindən qiymətləndirilir və dövlətlər dövri hesabatlar təqdim edərək fəaliyyətlərinin qiymətləndirilməsinə imkan yaradırlar (Avropa Şurası Standartları, 2011).

**Cədvəl 1. Gender bərabərliyinin təmin edilməsi üzrə əsas beynəlxalq sənədlər və onların tətbiq mexanizmləri**

| Sənədin adı | Məqsəd | Tətbiq mexanizmi |
|---|---|---|
| **CEDAW (1979)** | Gender ayrı-seçkiliyinin ləğvi. | Qanunvericilik dəyişiklikləri, CEDAW Komitəsinə hesabatlar. |
| **Pekin Platforması (1995)** | Qadın hüquqları və gender bərabərliyi. | Milli planlar, BMT monitorinqi. |
| **SDG (2015)** | Gender bərabərliyi və qadınların gücləndirilməsi. | Strategiyalar, hesabatlar, qlobal monitorinq. |
| **Avropa Strategiyası (2018–2023)** | Avropada gender bərabərliyi və hüquqi müdafiə. | Dövlət tədbirləri, AİHM nəzarəti. |
| **İstanbul Konvensiyası (2011)** | Zorakılığın qarşısı, qurbanların müdafiəsi. | Qanun uyğunlaşdırması, GREVIO qiymətləndirməsi. |

Gender bərabərliyinin dövlət səviyyəsində təmin edilməsi siyasəti

- ❖ Milli qanunvericilik;
- ❖ Milli fəaliyyət planları;
- ❖ İnstitutlar və strukturlar;
- ❖ İctimai maarifləndirmə və təhsil;
- ❖ Monitorinq və hesabatlılıq.

Dövlət səviyyəsində gender bərabərliyinin təmin olunmasının əsası milli qanunvericiliklə qoyulur. Konstitusiyada və xüsusi qanunlarda qadın və kişilərin hüquq bərabərliyi təsbit olunur. Məsələn, "Gender bərabərliyinin təminatı haqqında" qanun qadın və kişilər arasında hüquq və imkan bərabərliyinin bütün sahələrdə qorunmasını tələb edir. Eyni zamanda, əmək hüquqları, sosial müdafiə, zorakılığa qarşı müdafiə və siyasi iştirak sahələrində də gender yanaşması milli qanunvericiliyə daxil edilir. Dövlətlər beynəlxalq müqavilələrə qoşulduqdan sonra bu sənədlərin tələblərini milli qanunlara inteqrasiya etməyə borcludurlar (Azərbaycan Respublikasının Qanunu, 2006).

Gender bərabərliyinin praktik səviyyədə həyata keçirilməsi üçün dövlətlər müəyyən dövrlər üçün konkret fəaliyyət planları qəbul edirlər. Bu planlarda qadınların və kişilərin bərabər hüquqlarla cəmiyyətdə iştirakını təşviq edən tədbirlər, qadınların əmək bazarında, təhsildə, səhiyyədə, siyasi həyatda iştirakı üçün xüsusi proqramlar müəyyən edilir. Eyni zamanda zorakılığa qarşı mübarizə, iqtisadi gücləndirmə, liderlik imkanlarının artırılması kimi prioritet sahələr üzrə də planlaşdırılmış tədbirlər yer alır. Bu planların icrası üçün büdcə ayrılır və aidiyyəti qurumlar tərəfindən həyata keçirilir.

Gender bərabərliyinin təmin olunmasında dövlətin müəyyən etdiyi xüsusi institutlar və strukturlar mühüm rol oynayır. Məsələn, Azərbaycanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu sahədə əsas icraedici orqan rolunu oynayır. Eyni zamanda, Ombudsman (İnsan Hüquqları üzrə Müvəkkil) qurumu gender ayrı-seçkiliyi və hüquq pozuntularının araşdırılmasında və müdafiəsində iştirak edir. Hüquq-mühafizə orqanları, sosial müdafiə strukturları və bələdiyyələr də gender əsaslı fəaliyyətləri dəstəkləyən strukturlar arasında yer alır.

Gender bərabərliyinin dərinləşməsi üçün ictimaiyyətin maarifləndirilməsi və təhsil sistemində gender məsələlərinin inteqrasiyası vacibdir. Məktəblərdə və ali təhsil müəssisələrində gender bərabərliyi ilə bağlı dərs proqramları və təlimlər təşkil edilir. İctimai kampaniyalar, seminarlar, sosial media kampaniyaları və digər tədbirlər vasitəsilə qadın və kişilərin bərabər hüquq və imkanlara malik olması barədə cəmiyyətin məlumatlandırılması həyata keçirilir. Maarifləndirmə tədbirləri gender stereotiplərinin aradan qaldırılmasına və gender əsaslı zorakılığın qarşısının alınmasına yönəlir (Safarov E. 2018).

Gender bərabərliyinin təmin olunması üzrə aparılan işlərin səmərəliliyi mütəmadi monitorinq və hesabatlılıq mexanizmləri ilə qiymətləndirilir. Dövlət qurumları tərəfindən hazırlanan illik hesabatlar beynəlxalq təşkilatlara təqdim olunur və bu hesabatlar

əsasında yerli və beynəlxalq səviyyədə irəliləyiş və çətinliklər qiymətləndirilir. Monitorinq mexanizmləri tədbirlərin icrasını ölçür, çatışmazlıqları aşkar edir və yeni tövsiyələr hazırlayır. Həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti təşkilatları monitorinq prosesində iştirak edir (UN Women, 2024).

## Nəticə

Gender bərabərliyinin təmin edilməsi beynəlxalq hüququn prioritet istiqamətlərindən biri kimi çıxış edir və bu sahədə qəbul olunan müqavilələr dövlətlər üçün konkret öhdəliklər müəyyənləşdirir. Xüsusilə CEDAW və digər beynəlxalq sənədlər qadınların hüquqlarının qorunması, gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılması və institusional dəyişikliklərin həyata keçirilməsi üçün hüquqi və praktiki mexanizmlər təqdim edir. Bu sənədlər əsasında dövlətlər milli qanunvericiliklərini təkmilləşdirir, müvafiq siyasət və proqramlar hazırlayır. Azərbaycan da bu istiqamətdə mühüm addımlar atmış və beynəlxalq öhdəliklərə uyğun şəkildə hüquqi bazasını gücləndirmişdir. Lakin gender bərabərliyinə tam nail olmaq üçün hüquqi tədbirlərlə yanaşı, cəmiyyətdəki sosial stereotiplərin dəyişdirilməsi, maarifləndirmə işlərinin genişləndirilməsi və qadınların ictimai-siyasi həyatda fəallığının artırılması davamlı şəkildə həyata keçirilməlidir. Bu istiqamətdə beynəlxalq mexanizmlər mühüm yol xəritəsi rolunu oynayır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Avropa Şurası Standartları, (2011), "Gender bərabərliyi və qadın hüquqları" Avropa şurasının konvensiyaları (Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası (İstanbul Konvensiyası)), 6s. https://rm.coe.int/gender-equality-and-womens/1680a1aa86*

*2. Avropa Şurası, (2018), Avropa Şurasının Gender Bərabərliyi Strategiyası 2018–2023. "Avropa Şurası", 26 s. https://rm.coe.int/ge-strategy-2018-2023-azerbaijani/16808cdbd9*

*3. Azərbaycan Respublikasının Qanunu, (2006). "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında". Bakı: Azərbaycan Respublikasının Milli Məclisi. https://e-qanun.az/framework/12424*

*4. Birləşmiş Millətlər Təşkilatı, (2015). BMT-nin Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə dəstəyi, Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədləri. https://azerbaijan.un.org/az/sdgs*

*5. BMT (2022), BMT-nin Qadınlara qarşı Zorakılığın Ləğv edilməsi üzrə Komitəsinin Azərbaycanın təqdim etdiyi altıncı dövri hesabat üzrə Yekun Müşahidələri, BMT İHAK, 31 s.*

*file:///C:/Users/Administrator/Downloads/Documents/CEDAW%20CO.pdf*

*6. CEDAW, (2017), İnsan Hüquqları. "Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında" Konvensiya (Qızların və qadınların təhsili hüququna dair 36 saylı ümumi tövsiyə)*

*https://azerbaijan.un.org/sites/default/files/2023-04/CEDAW%20GR%2336.pdf*

*7. Safarov E. (2018). Modern challenges and development of the gender equality system in the Republic of Azerbaijan. "Gender problemi və müasir Azərbaycan" mövzusunda keçirilmiş II respublika elmi konfransının materialları, Bakı, Azərbaycan Universiteti, 139 - 142s.*

*https://www.au.edu.az/upload-files/konfrans/Gender_2018.pdf*

*8. UN Women, (2024). Mechanisms for the advancement of women in latin america and the caribbean: a necessary condition for the advancement of gender equality, 80s.*

*https://lac.unwomen.org/sites/default/files/2024-02/en_report_mam-or_24feb24.pdf*

## XÜLASƏ

Məqalədə gender bərabərliyinin beynəlxalq hüquqi sənədlər – xüsusilə CEDAW, İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsi və Pekin Fəaliyyət Platforması vasitəsilə necə təmin olunduğu araşdırılır. Beynəlxalq müqavilələr gender ayrı-seçkiliyinin aradan qaldırılması üçün dövlətlərə hüquqi öhdəliklər qoyur, monitorinq və hesabatlılıq mexanizmləri təklif edir. Həmçinin, məqalədə milli səviyyədə qanunvericiliyin uyğunlaşdırılması, ictimai maarifləndirmə və zorakılıqla mübarizə kimi tətbiqi mexanizmlər də təhlil edilir. Azərbaycan nümunəsində göstərilir ki, ölkə beynəlxalq öhdəliklərə uyğun addımlar atmış, gender bərabərliyini təmin etmək üçün qanunvericilik və institusional islahatlar həyata keçirmişdir. Sonda qeyd olunur ki, gender bərabərliyi yalnız hüquqi məsələ deyil, sosial ədalətin və davamlı inkişafın əsas amilidir.

**Açar sözlər:** *gender bərabərliyi, beynəlxalq müqavilələr, insan hüquqları, qadın hüquqları, hüquqi mexanizmlər, gender siyasəti.*

## ADMINISTRATION AND LEGAL ENSURANCE OF GENDER EQUALITY IN THE CONTEXT OF GLOBAL LEGAL TREATIES

**Summary**

The article examines how gender equality is ensured through international legal instruments - in particular CEDAW, the Universal Declaration of Human Rights and the Beijing Platform for Action. International treaties impose legal obligations on states to eliminate gender discrimination, and propose monitoring and accountability mechanisms. The article also analyzes implementation mechanisms at the national level, such as legislative harmonization, public education and combating violence. The example of Azerbaijan shows that the country has taken steps in line with international obligations and implemented legislative and institutional reforms to ensure gender equality. In conclusion, it is noted that gender equality is not only a legal issue, but also a key factor in social justice and sustainable development.

**Keywords:** *gender equality, international treaties, human rights, women's rights, legal mechanisms, gender policy.*

## АДМИНИСТРАТИВНО-ПРАВОВОЕ ОБЕСПЕЧЕНИЕ ГЕНДЕРНОГО РАВЕНСТВА В КОНТЕКСТЕ ГЛОБАЛЬНЫХ ПРАВОВЫХ ДОГОВОРОВ

**Резюме**

В статье рассматривается, как гендерное равенство обеспечивается посредством международно-правовых инструментов, в частности КЛДЖ, Всеобщей декларации прав человека и Пекинской платформы действий. Международные договоры налагают на государства правовые обязательства по ликвидации гендерной дискриминации и предлагают механизмы мониторинга и подотчетности. В статье также анализируются механизмы реализации на национальном уровне, такие как гармонизация законодательства, повышение осведомленности общественности и борьба с насилием. Пример Азербайджана показывает, что страна предприняла шаги в соответствии с международными обязательствами и осуществила законодательные и институциональные реформы для обеспечения гендерного равенства. В заключение отмечается, что гендерное равенство является не только юридическим вопросом, но и ключевым фактором социальной справедливости и устойчивого развития.

**Ключевые слова:** *гендерное равенство, международные договоры, права человека, права женщин, правовые механизмы, гендерная политика.*